# QƏRBİ KASPİ UNİVERSİTETİ

# KEYFİYYƏT TƏMİNATI MƏRKƏZİNİN

# ƏSASNAMƏSİ

*QKU-nIn Elmi Şurasının*

*09 yanvar 2021-ci il tarixli iclasının*

*(prot. № 06) qərarı ilə təsdiq edilmişdir.*

Imza

Tarix 10.01.2021

**Bakı – 2021**

# ƏSASNAMƏ

| Struktur bölmə: | KEYFİYYƏTİN TƏMİNATI MƏRKƏZİ |
|---|---|

| | Ştat vahidilərin tərkibi: | Vahid | Kateqoriya | Kodu |
|---|---|---|---|---|
| | **Keyfiyyətin Təminatı Mərkəzinin Direktoru** | 1 ştat | B1 | KTM |
| 1. | **Tədris Prosesinin Monitorinqi Sektoru** | | B2 | TPMS |
| | Müdir | 1 ştat | | |
| | Mütəxəssis | 2 ştat | | |
| 2. | **Keyfiyyətin Təhlili və Qiymətləndirilməsi Sektoru** | | B2 | KTQS |
| | Müdir | 1 ştat | | |
| | Mütəxəssis | 2 ştat | | |

| Hesabat: | Qərbi Kaspi Universitetinin Rektoru |
|---|---|

**Əsasnamənin təsviri:**

- Ümumi müddəalar
- Keyfiyyətin Təminatı Mərkəzinin funksiyaları
- Müstəqillik və obyektivlik
- Səlahiyyətlər və hüquqlar
- Mərkəzin idarə edilməsi
- Struktur bölmələri ilə qarşılıqlı əlaqə
- Məsuliyyət
- Standartlar, normativ sənədlər

## ÜMUMİ MÜDDƏALAR

1. “Qərbi Kaspi Universitetinin” (bundan sonra Universitet) Keyfiyyətin Təminatı Mərkəzinin (bundan sonra Mərkəz) statusu, fəaliyyəti  və idarəetməsi Azərbaycan Respublikasının təhsil qanunvericiliyi, Universitetin Nizamnaməsi və bu Əsasnamə ilə müəyyən edilir.
2. Mərkəz fəaliyyəti zamanı Azərbaycan Respublikasının qanunlarını, o cümlədən, "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"nu, təhsillə bağlı qanunvericilik aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmr, sərəncam və göstərişlərini, Unversitetin Təsisçilər Şurası, Qəyyumlar Şurası, Böyük Şura və Elmi Şurasının qərarlarını, Universitet rəhbərliyinin əmr və göstərişlərini, elmin son nailiyyətlərini, idarəetmədə, elmi fəaliyyətdə, təhsil və tədrisdə keyfiyyət satandartlarını və bu sahədə beynəlxalq təcrübəni, öz vəzifə funksiyaları çərçivəsində keyfiyyətə nəzarətlə bağlı milli və beynəlxalq tədqiqatların nəticələrini, həmçinin təhsilə dair əmək qanunvericiliyinin tələblərini əsas götürür.
3. Mərkəz təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun, təhsil müəssisəsində səmərəli və müasir tələblərə uyğun tədris mühitinin  yaradılmasının və onun fəaliyyətinin özünütəhlil əsasında davamlı inkişafının təmin olunmasına xidmət edən təşkilatı strukturdur.
4. Mərkəz rektorluq yanında yaradılır və fəaliyyətini Universitet Rektorunun rəhbərliyi altında həyata keçirir.
5. Namizəd Universitetin rektorunun, Universitetin Tədris işləri və Ümumi İşlər üzrə prorektorları ilə razılaşdırılmış qərarı ilə Rektor tərəfindən vəzifəyə təyin olunur.
6. Keyfiyyətin Təminatı Mərkəzininin idarəçiliyi Mərkəzin Rəhbəri tərəfindən həyata keçirilir.
7. Mərkəz Universitetin bütün fakültələri, kafedralarıı, digər struktur bölmələri ilə əlaqəli fəaliyyət göstərir.

## KEYFIYYƏT TƏMİNATI MƏRKƏZİNİN FUNKSIYALARI VƏ ROLU

**Mərkəzin rolu:**

- Keyfiyyət siyasətinin müəyyənləşdirilməsi;
- Keyfiyyət hədəflərinin müəyyənləşdirilməsi;
- Dəyər yaradılması prosesinin müəyyənləşdirilməsi;
- Ölçmə (proses, məhsul, məmnuniyyət) modeli;
- Keyfiyyət və inkişafla bağlı audit protokolunun hazırlanması;
- Təkmilləşdirmə modeli;
- Risklərin idarəedilməsi modeli və mexanizmi (risklərin növləri və onların icrası);
- Sənədləşmə (qaydalar və prosedurlar);
- Keyfiyyət mədəniyyətinin təbliği.

**Mərkəzin ümumi əsas funksiyaları:**
Universitetdə daxili keyfiyyət təminatı sistemi, o cümlədən monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırılma, onun tədris fəaliyyətinin artması ilə yanaşı strateji inkişaf və idarəetmənin səmərəliyinin artmasıdır.
Universitetinin daxili keyfiyyətin təminatı sahəsində Keyfiyyətin Təminatı Mərkəzinin əsas funksional fəaliyyəti:

1. Universitetin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun qiymətləndirilməsi;
2. Universitetdə səmərəli və müasir tədris mühitinin yaradılması və işlək vəziyyətdə saxlanılması;
3. Universitetin fəaliyyətinin özünütəhlil əsasında davamlı inkişaf etdirilməsinin təmin edilməsi;
4. Keyfiyyət təminatı istiqamətində yerli və beynəlxalq qiymətləndirmə agentlikləri ilə əməkdaşlıq etmək.
5. Keyfiyyətin təminatı sisteminin təşkil edilməsi;
6. Bütün mənbələrdən KTS üçün vacib məlumatların / göstəricilərin toplanmasının koordinasiyası;
7. Maraqlı tərəflərin gözləntilərinin müəyyənləşdirilməsi;
8. Universitetin və fakültələrin bölmələrinə özünü qiymətləndirmənin təşkili və həyata keçirilməsində və akkreditasiya hazırlıqlarında konsultasiya dəstəyi;
9. Keyfiyyət təminatı üzrə mütəmadi daxili təlimlərin keçirilməsi;
10. Universitetin digər struktur bölmələri ilə birgə Keyfiyyət təminatı prosesinə xarici maraqlı tərəflərin cəlb olunması;
11. Avropa, milli və istitusional səviyyədə təlim və tədris üzrə keyfiyyət təminatı sistemlərinin ümumi çərçivəsinin müəyyənləşdirilməsi;

**Tədris Prosesinin Monitorinqi Sektorun funksiyaları:**

1. Fənn proqramlarının və tədris proseslərinin daimi monitorinqin aparılması;
2. Monitorinq fəaliyyətinin planlaşdırılması və digər struktur bölmələrin iş planlarına uyğun aparılmasının təşkil edilməsi;
3. Dekanlıq ilə birgə tələbələrlə əks əlaqə sisteminin yaradılması və məmnunluq dərəcələrinin öyrənilməsi;
4. Tədris prosesinin təsdiq edilmiş dərs cədvəllərinə uyğunluğunun monitorinqi;
5. Tədrisin həyata keçirilmə forma və metodlarının monitorinqinin aparılması;
6. İmtahan prosesinin gedişatının monitorinqi.

**Keyfiyyətin Təhlili və Qiymətləndirilməsi Sektorun funksiyaları:**

1. Proqramların və tədris proseslərinin monitorinqinin nəticələrinin təhlili və qimətləndirilməsi;
2. Keyfiyyət problemləri, uyğunsuzluğun müəyyənləşdirilməsi və inkişaf prosesi barədə məlumatların əlaqələndirilməsi;
3. Aşkar olunmuş nöqsanların idarəedilməsi;
4. Tələblərdən və müəllimlərdən daxil olan sorğu (məmnunluq) anketlərin təhlili və qiymətləndirilməsi;
5. Əldə olunmuş hesabatlar əsasında KTSin daim inkişaf etdirilməsini təmin etmək;
6. Beynəlxalq keyfiyyət sisteminin inkişaf tendensiyalarının təhlili və tətbiqi;
7. İmtahan prosesləri ilə bağlı daxil olan məlumatların təhlili və qiymətləndirilməsi;
8. Keyfiyyətin İdarəetmə Sistemi çərçivəsində işlək proseslərin təhlili və təkliflərin hazırlanaraq rəhbərliyə təqdim olunması.
9. Müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi sahəsində təkliflərin hazırlanması və həyata keçirilməsi;
10. Tədris prosesində innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadəsi, habelə aparıcı təcrübənin tətbiq olunması sahəsində təkliflərin hazırlanması;
11. Avropa ali təhsil məkanında tətbiq edilən ali təhsilin keyfiyyət təminatına və yaxşılaşdırılmasına dair təkliflərin hazırlanması və həyata keçirilməsi.

**MÜSTƏQİLLİK VƏ OBYEKTİVLİK**

Mərkəz funksiyalarını yerinə yetirərək və qiymətləndirmə üzrə müstəqil və obyektiv prosesləri icra edərək, həmçinin nümunəvi təcrübəni rəhbər tutaraq, Mərkəz kimi əsas məsələsi keyfiyyətin təminatı sisteminin fəaliyyətinin ən yüksək prinsiplərin və standartların yenilənmiş versiyalarına müvafiq həyata keçirilməsinin təmin edilməsindən ibarətdir.

**SƏLAHIYYƏTLƏR VƏ HÜQUQLAR**

Mərkəz öz funksiyalarını yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

- Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Universitetin fakültələrinə, kafedralarına və digər struktur bölmələrə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;
- Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar

hazırlamaq;
- Fəaliyyət istiqamətləri üzrə iclaslar, seminarlar təşkil etmək, məsləhət yönümlü vəsaitlər hazırlamaq və nəşr etdirmək;
- Beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, təcrübə və kadr hazırlığı mübadiləsi aparmaq, müvafiq layihələrin həyata keçirilməsində iştirak etmək;
- Avropa təhsil standartlarına inteqrasiya şəraitində universitetin fəaliyyət istiqamətlərinə uyğun digər dövlətlərin qabaqcıl təcrübəsini öyrənmək, onun tətbiqi sahəsində fəaliyyəti həyata keçirmək və bu istiqamətdə universitet rəhbərliyinə təkliflər vermək;
- Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**MƏRKƏZİN İDARƏ EDİLMƏSİ**

Mərkəzə rəhbərlik həmin vəzifəyə təyin edilmiş Mərkəzin Rəhbəri (Direktoru) tərəfindən həyata keçirilir.
Mərkəzin Rəhbəri qeyd olunan strukturun fəaliyyəti ilə əlaqədar aşağıdakı hüquq və vəzifələrə malikdir:
- Mərkəzin fəaliyyətini təşkil edir;
- Səlahiyyətləri çərçivəsində mərkəzin tabeliyində olan bölmələrin fəaliyyətinə dair icrası məcburi olan göstərişlər verir və onların icrasına nəzarət edir;
- Tabeliyində olan bölmələr və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir;
- Mərkəzin əməkdaşları tərəfindən əmək və icra intizamına riayət edilməsinə nəzarət edir;
- Mərkəz üzrə Universitetin Elmi Şurasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Rektora təqdim edir;
- Mərkəzin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Universitet rəhbərliyinə təqdimatlar verir;
- Mərkəzin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Universitetin struktur bölmələrindən və digər qurumlarından zəruri məlumat və sənədləri alır;
- Mərkəzə daxil olan məktub, ərizə, şikayət və təkliflərə baxılmasını təşkil edir;
- Mərkəzdə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;
- Universitet rəhbərliyinin tapşırığı  ilə dövlət orqanlarında və təşkilatlarda keçirilən tədbirlərdə Mərkəzi təmsil edir;
- İmtahanların keçirilməsi ilə bağlı xüsusi halların araşdırılması üçün universitet rəhbərliyinə təkliflər verir;
- Öz səlahiyyətləri daxilində bu Əsasnamə ilə müəyyən edilmiş qaydada beynəlxalq əməkdaşlığa dair danışıqlar aparır və beynəlxalq tədbirlərdə iştirak edir;
- Mərkəzin fəaliyyəti barədə Universitet rəhbərliyinə mütəmadi olaraq hesabatlar və məlumatlar verir;
- Əməkdaşlarının etik davranış qaydalarına əməl etməsini təmin edir;
- Mərkəzin fəaliyyət istiqamətinə müvafiq işlərin təşkili vəziyyətini öyrənir, təhlil edir və bu işin yaxşılaşdırılması üçün təkliflər hazırlayıb Universitet rəhbərliyinə təqdim edir;
- Mərkəzin fəaliyyət sahəsində pedaqoji və metodik rəyi öyrənmək məqsədilə sosioloji axtarışlar edir və müvafiq təkliflər verir;
- Mərkəzin hazırladığı bütün sənədlərin elmiliyi, aktuallığı, keyfiyyəti, həmçinin əməkdaşların əmək və icra intizamının təmin edilməsi üçün məsuliyyət daşıyır.

**STRUKTUR BÖLMƏLƏRİ İLƏ QARŞILIQLI ƏLAQƏ**

Mərkəz keyfiyyətin təminatı sistemi üzrə məsuliyyət daşıyan struktur kimi Universitetin digər bölmələrinə münasibətdə öz fəaliyyətini həyata keçirərkən aşağıdakıları təmin edir:
- Obyektiv sübut və faktlara əsaslanaraq, monitorinq proseslərinin və analitik işlərin aparılmasında köməyin göstərilməsini;
- Ümumkorporativ səviyyədə statistik məlumat bazalarının yaradılması və inkişafını;
- Korporativ səviyyədə yaranmış problemlərin səbəblərinin aradan qaldırılması sahəsində vaxtında tədbirlərin görülməsini.

**MƏSULIYYƏT**

- Keyfiyyətin Təminatı Mərkəzinin Direktoru mərkəzin fəaliyyətinin nəticəsinə görə Universitetin normativ sənədləri ilə müəyyən edilmiş qaydada Təsisçilər Şurası, Elmi Şura və Rektor qarşısında məsuliyyət daşıyır.
- Mərkəz öz fəaliyyətinin nəticəsi üzrə imtahan sessiyalarının sonunda aralıq, tədris ilinin sonunda isə yekun hesabatı Universitet rəhbərliyinə təqdim edir.

**STANDARTLAR**

- “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə milli kvalifikasiyalar çərçivəsi”nin təsdiq edilməsi barədə
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18.07.2018-ci il tarizli 311 nömrəli Qərar;
- Azərbaycan Respublikası Prezidentinin 19.01.2015-ci il tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası”;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.12.2020-ci il 493 nömrəli Qərarı ilə təsdiq edilmişdiş “Təhsil müəssisələrinin Akkreditasiya Qaydaları”;
- “Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.11.1995 tarixli 242 nömrəli qərarı ilə təsdiq edilmişdir, 7 №-li Əlavə);
- “Ali təhsil müəssisələrində Dekan vəzifəsinə seçkilərin keçirilməsi Qaydaları”Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 saylı əmrinə əlavə 2;
- “Ali təhsil müəssisələrində Professor-müəllim və Kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə” Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı tarixli 401 saylı əmrinə Əlavə 1;
- ESG / Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (15.05.2015)
- European Credit Transfer and Accumulation System (ECTS) / Avropa Kredit Transferi və Yığım Sistemi (AKTYS);
- ISO-9001:2015 Beynəlxalq Standartı “Keyfıyyətı Idarəetmə Sıstemlərı - Tələblər”.